Xalq qəzeti 2020.- 16 oktyabr.- S.14.

***Bu səhər həyata düşəndə havanın gözəlliyi, təravəti məndə bir ayrı ovqat yaratdı. Sanki özümü Qarabağın uca dağlarında, sərin meşələrində, buz bulaqlarının əhatəsində hiss etdim. Payızın ılıq nəfəsi ciyərlərimə dolduqca, sanki daha da yüngülləşir, ruhum, duyğularım çilvələnib uçmaq istəyirdi. Bir anda mənə elə gəldi ki, illərdən bəri məhbəsdə olan gözəl Qarabağımızın, ətraf rayonların ecazkar havası da bizdən üz döndərmişdi. İşğal altında olan Vətən torpaqlarının iniltisi nə gecələr, nə də gündüzlər bizə rahatlıq vermir, o yerlərin nisgili, xiffəti bütün ruhumuzu sarsıdırdı.***

# Qarabağ torpağının ətri




Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayan və bu gün də davam edən müzəffər əməliyyatlarından sonra elə bil erməni vəhşiliklərindən gözü quruyan bulaqlara su gəlməyə başlayıb. Mənə elə gəldi ki, Qarabağın dərdlərə dərman ab-havası, çiçəklərinin ətri, quşların cəh-cəhi ilə bir harmoniya yaradan təbiətin sirli sədası ecazkar bir simfoniyaya çevrilib yurdumuzun hər yerinə, hətta Bakıdan çox-çox uzaqlara–Təbrizə, Ərdəbilə də azadlıq müjdəsi aparırdı. Molla Pənah Vaqifin Qarabağın gözəlliklərini vəsf edən ana südü kimi təmiz ləhcədə səsləndirdiyi qoşma və gəraylıları, müxəmməsləri, Üzeyir Hacıbəyovun musiqisi, Bülbülün qəlbləri riqqətə gətirən məlahətli səsi bu gözəlliklər diyarını özümdən ixtiyarsız gözlərim önündə canlandırırdı.

Ordumuzun qələbə müjdələrini alaralmaz ürəyimiz fərəhdən uçunur, uşaqdan böyüyə hamı musiqi beşiyimiz, işğaldan azad olan Cəbrayıla, Suqovuşana, Hadruta və hazırda döyüşlər gedən Şuşaya, Xankəndiyə, Ağdərəyə, Laçına, Kəlbəcərə, Zəngilana, Qubadlıya və digər ərazilərimizə baş çəkmək, neçə illər qəribçilikdə qalan dədə-baba yerlərimizi, doğmalarımızın qəbirlərini ziyarət etmək istəyirik. Ali Baş Komandan ilə qələbələrlə ən müasir tarixini Azərbaycan əsgərinin qanı, canı bahasına əldə edilən uğurlar hamımızı şəxsi ambisiyaları kənara qoyaraq yumruq kimi birləşməyə sövq edib. Azərbaycana diş qıcıyan bir çoxlarının gözləmədiyi bu birlik indi onların yuxusuna haram qatıb, Ali Baş Komandan, Ordu və Xalq birliyi qarşısında duruş gətirə bilməyən məkrli düşmən artıq acizliyini və məğlub olacağını yaxşı bilir deyə, yenə məzlum görkəm alıb.

Bu günlərdə Ali Baş Komandanımız cənab İlham Əliyevin xarici ölkə televiziya kanallarından birinə müsahibəsinə qulaq asanda qürurumdan ruhum cismimə sığmırdı. Dövlət başçımızın qətiyyətlə “30 illik işğalla Azərbaycan xalqı heç vaxt barışa bilməz” deməsinə körpə uşaq kimi sevindim, ürəyim dağa döndü. Torpaqlarımızın düşməndən azad edilməsində xalq-dövlət birliyi hər bir azərbaycanlı kimi, məni də sevindirir, ordumuzun gücünə güc qatan bu yenilməz qüvvə hamımızda sönməz inam yaradır. Xarici dövlətlərin aramsız təzyiqlərinə baxmayaraq, Azərbaycan dövləti bu gün yenilməz iradə və qətiyyət göstərərək öz torpaqlarını düşməndən azad edir. Özü də təkbaşına, kimsədən kömək gözləmədən, öz yenilməz ordusunun yüksək döyüş potensialı sayəsində.

İndiyədək münaqişənin sülh yolu ilə həll variantlarının çoxdan səmərəsiz olduğu, qarşı tərəfin heç bir kompromisə gəlmək istəməməsi bizi müharibə yolu ilə torpaqlarımızı azad etmək hüququmuzdan istifadə etməyə məcbur etdi. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə səsləndirdiyi “biz sülhsevər xalqıq, biz müharibə istəmirik, lakin Azərbaycan ərazisində ikinci bir erməni dövləti qurmağa heç vaxt imkan verməyəcəyik” bəyanatı və atdığı qətiyyətli addımlar bütün dünya azərbaycanlıları, türkdilli xalqlar, ən başlıcası qardaş Türkiyə tərəfindən dəstəklənir, müdafiə olunur. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın bu müqəddəs Vətən müharibəsinin ilk günlərindən “qardaş Azərbaycanın yanındayıq” deməsi və öz mənəvi köməyini əsirgəməməsi həm meydanda tək olmadığımızın təsdiqi, həm də üçüncü tərəfləri müharibəyə cəlb etmək istəyən Ermənistan rəhbərliyinə və onun havadarlarına sərt bir mesaj olub. Hələlik, Ermənistanı silah və sursatla açıq-aşkar təmin edən dövlətlər də, Livandan, Suriyadan, Fransa və başqa ölkələrdən Azərbaycana qarşı döyüşlərdə iştirak etmək üçün gələn muzdlular və müxtəlif terrorçu qruplaşmaların üzvləri də bilməlidirlər ki, onlar Azərbaycanın bu haqq savaşında heç nəyə nail ola bilməyəcək və adsız, ünvansız qurbana çevriləcəklər.

Hər yerdən əli üzülən, simasını itirmiş baş nazir Paşinyanın Ermənistan ordusunun böyük itkilər verməsini etiraf etməsi, ancaq buna baxmayaraq, xalqı son anadək mübarizəyə səsləməsi artıq beynəlxalq aləmdə bu dövlətin iflasından, onun hərbi siyasi rəhbərliyinin nə qədər acınacaqlı duruma düşməsindən xəbər verir. Sadə erməni xalqını zorla qırğına verib öz hakimiyyətini möhkəmlətmək istəyən Paşinyan yaxşı bilir ki, onun qısa müddətli liderlik eyforiyasının sonu çatır. Hazırda qadınlar, qocalar və uşaqları qırğına verməyə hazır olan bu “lider” özünün və komandasının xalq tərəfindən hakimiyyətdən uzaqlaşdırılacağı günü gözləyir. O gün uzaqda deyil. Çünki gündən-günə Azərbaycan Ordusu işğal altında olan torpaqları azad etməklə, Paşinyan hakimiyyəti üçün ölüm hökmü yazmaqdadır.

Cəbhə xəttindən çox-çox uzaqda olan Azərbaycanın müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbə və kəndlərində yaşayan mülki əhalini ağır artilleriya, qadağan olunmuş bombalarla atəşə tutmaqla Ermənistan xalqımızın mübarizə əzmini qıra bilməyəcək.

Əslində, Gəncədə tökülən qanlar, günahsız insanların gecə vaxtı bombalanması Ermənistanın terrorçu dövlət siyasətinin mahiyyətini üzə çıxarır, erməni vandalizmini bəşəriyyətə nümayiş etdirir. Bizə bu dövlətin vandallığı onların Daşaltını, Xocalını, Kəlbəcəri, Laçını, Şuşanı və digər rayon və şəhərlərimizi işğal edərkən törətdikləri cinayətlər, soyqırımı aktlarından məlumdur. Onların insanlığa sığmayan bu vəhşilikləri bizi daha da mətinləşdirdi, güclü, qüvvətli etdi. Daha ölkəmiz 1990-cı illərin əvvəllərindəki Azərbaycan deyil. Onun qüdrətli ordusu, güclü iqtisadiyyatı, apardığı haqq mübarizəsində sadiq dostları var.

İnanıram ki, tezliklə şanlı Azərbaycan Ordusu Şuşada, Xankəndidə üçrəngli bayrağımızı dalğalandıracaq. Düşmənin hərbi birləşmələri bir daha bizim torpaqlara tərəf baxmağa cəsarət etməyəcək. Məndə bu inamı isə Ali Baş Komandanın sözünün üstündə mətinliklə duraraq beynəlxalq güclərə qarşı çıxması, bir qarış torpağımızı belə düşmənə güzəştə getməyəcəyimiz haqqında qətiyyətlə səsləndirdiyi fikirlər yaradıb.

Cənab Prezident, Azərbaycanda bu gün döyüşə atılmağa hazır olan on minlərlə vətənpərvər oğullar var. Hamımız Sizin əmrinizi gözləyirik. Bu gün arxa cəbhədə fəaliyyətimizlə Vətənə xidmətimizi davam etdirsək də, zərurət yarandığı zaman hamımız Sizin bir çağırışınızla silaha sarılmağa hazırıq.Torpaq, əgər uğrunda ölən varsa Vətəndir. Şəhidliyimiz, qanımız bahasına olsa belə öz torpaqlarımızı sonadək azad edəcəyik. İrəli, Azərbaycan əsgəri!

Qarabağ torpağının payızı da gözəldir, qışı da, baharı da, yayı da. Xüsusilə, son günlərdə İsa bulağının suyundan içmək, Cıdır düzündə gəzmək, Pənahəli xanın əsasını qoyduğu Şuşa qalasına çıxıb ətraf elatı, qarşı baxan qarlı dağları seyr etmək hər bir azərbaycanlının müqəddəs arzusuna çevrilib və Ali Baş Komandan İlham Əliyev başda olmaqla şanlı Milli Ordumuz və bütün Azərbaycan bu arzunun ünvanlarına doğru irəliləməkdədir.

Yazımı şair Qabilin "Kommunist" qəzetində hələ 1983-cü ildə dərc edilmiş və bugünümüzlə səsləşən bir rübaisi ilə tamamlamaq istəyirəm:

**Hərbi and içiləndə dönür dağa ürəyim,**
**Çırpınır, qanadlanır ucalmağa ürəyim.**
**Əsgər paltarı geymiş qartal balalarıyla,**
**Daha möhkəm bağlanır**
**bu torpağa ürəyim.**

**Yaşasın xalqın, millətin ürəyini dağa döndərən Azərbaycan Ordusu!**
**Yaşasın Ali Baş Komandan!**
**Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!**

***Qabil YUSİFOĞLU,***
***“Xalq qəzeti”***